Üçrəngli bayrağımızın qayıdış günü mövzulu konfrans keçirilib // 525-ci qəzet. - 2020. - 20 noyabr. - № 157. - S. 12.

AMEA-nın Naxçıvan Bölməsində “Üçrəngli bayrağımızın qayıdış günü” mövzusunda elmi konfrans keçirilib.

17 Noyabr - Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Gününə həsr olunan tədbiri bölmənin sədri, akademik İsmayıl Hacıyev açaraq bu günün Azərbaycan tarixində mühüm hadisələrlə yadda qaldığını deyib. Qeyd edib ki, ümummilli lider Heydər Əliyevin 1990-cı ilin 22 iyulunda doğma vətəninə qayıtdığı gündən xalq sevgi və məhəbbətlə ulu öndərin ətrafında sıx birləşdi. Tarixi qayıdışı ilə görkəmli dövlət xadimi Azərbaycanı gözləyən real bəlalardan, təhlükələrdən xilas etdi və milli dövlətçiliyin bərpası istiqamətində qəti addımlar atdı.

Tədbirdə 1990-cı il noyabrın 17-də keçirilən Naxçıvan Ali Məclisinin birinci sessiyasının milli dövlətçilik tariximizdə özünəməxsus yer tutduğu qeyd olunaraq vurğulanıb ki, dünya şöhrətli siyasətçi Heydər Əliyevin sədrliyi ilə keçirilən sessiyada mühüm tarixi-siyasi əhəmiyyətli qərarlar qəbul edildi, dövlət rəmzləri haqqında məsələ müzakirə olundu. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli milli bayrağı dövlət bayrağı kimi qəbul edildi.

Müstəqilliyimizin rəmzi olan bayrağımızın həmişə uca tutulduğunu, onun qorunması və mühafizəsi ilə bağlı bir çox qanun və sərəncamların verildiyini deyən bölmə sədri bayrağımızın təbliği baxımından mühüm əhəmiyyət daşıyan tarixi sənədlərdən bəhs edib. Bildirib ki, bu istiqamətdə görülən tədbirlərin davamı olaraq, Prezident İlham Əliyevin Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında imzaladığı Sərəncam Dövlət Bayrağına hörmət və ehtiramın yüksək ifadəsidir.

İsmayıl Hacıyev Naxçıvan Muxtar Respublikasında da dövlət rəmzlərinin təbliğ olunmasının, hörmət və ehtiramla qarşılanmasının həmişə diqqət mərkəzində saxlanıldığını, dövlət atributlarının təbliğinin başlıca yerdə dayandığını deyib. O qeyd edib ki, 22 avqust 2014-cü ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması haqqında sərəncam imzalayıb. Həmin sənədə əsasən 2014-cü il noyabrın 17-də Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyi istifadəyə verilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı haqqında” 2014-cü il 17 noyabr tarixli sərəncamına əsasən hər il 17 Noyabr - Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd edilir.

Konfransda bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli “17 noyabr - üçrəngli bayrağımızın

əbədi qayıdış günü” mövzusunda məruzə ilə çıxış edib. Qeyd olunub ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun uğurlu əməliyyatları nəticəsində düşmən işğalından azad edilən əzəli və əbədi torpaqlarımızda bu gün üçrəngli bayrağımız qürurla dalğalanır.